**Kazımova Şəfa Eyvaz qızı**
ARTİ-nin Təhsil nəzəriyyəsi şöbəsinin böyük elmi işçisi
**Tağıyeva Rüxsarə Eldar qızı**
ARTİ-nin Təhsil nəzəriyyəsi şöbəsinin böyük elmi işçisi

# ÜMUMTƏHSİL MƏKTƏBLƏRİNDƏ ŞAGİRDLƏRİN EKOLOJİ MƏDƏNİYYƏTİNİN FORMALAŞDIRILMASI PROBLEMLƏRİ

**Казимова Шафа Эйваз кызы,**
старший научный сотрудник отдела теории образования ИОАР;
**Тагиева Рухсара Эльдар кызы,**
старший научный сотрудник отдела теории образования ИОАР

# ПРОБЛЕМЫ ФОРМИРОВАНИЯ ЭКОЛОГИЧЕСКОЙ КУЛЬТУРЫ У УЧАЩИХСЯ ОБЩЕОБРАЗОВАТЕЛЬНЫХ ШКОЛ

**Kazimova Shafa Eyvaz,**
senior academic researcher, department of educational theory,
Institute of Education of the Republic of Azerbaijan;
**Tagiyeva Ruhsara Eldar,**
senior academic researcher, department of educational theory
Institute of Education of the Republic of Azerbaijan;

# THE PROBLEMS OF THE FORMATİON OF ECOLOGICAL CULTURE OF PUPILS İN GENERAL EDUCATİON SCHOOLS

**Xülasə:** Təbiəti qorumaq üçün təhsilalanların ekoloji cəhətdən maarifləndirilməsi çox vacib məsələdir. Bildiyimiz kimi, hər bir fərd tərbiyənin əsasını ümumtəhsil məktəblərindən alır. Belə olan halda ümumtəhsil məktəbləri öz şagirdlərinin ekoloji cəhətdən hərtərəfli tərbiyəsini təmin etməli və bu sahədə maarifləndirmə işləri həyata keçirməlidirlər. Şagirdlərin ekoloji mədəniyyətinin formalaşdırılması və onların yaşadıqları ətraf mühit üçün ekologiya dostu olaraq yetişdirilmələri hazırda məktəbin qarşısında duran mühüm problemlərdən biridir.

***Açar sözlər:*** *ekologiya, ekoloji mədəniyyət, ekoloji siyasət, plastik tullantılar, plastik kirlənmə, təhsil, ümumtəhsil məktəbləri, şagirdlərin inkişafı;*

**Резюме:** Экологическое просвещение учеников оющеобразовательных школ является очень важным вопросом для защиты природы. Как известно, каждый человек получает основу воспитания от общего образования. В этом случае общеобразовательные школы должны обеспечивать всестороннее экологическое образование своих учеников и проводить просветительские мероприятия в этой области. Формирование экологической культуры учащихся и их экологической дружественной среды для их среды является одной из основных задач, стоящих перед школой.

***Ключевые слова:*** *экология, экологическая культура, экологическая политика, пластиковые отходы, пластиковые загрязнения, образование, общеобразовательные школы, развитие учащихся;*

**Summary:** Environmental enlightenment of students is a very important issue to protect nature. As we know, each individual receives the basis of upbringing from general education. In this case, general education schools should provide comprehensive environmental education of their students and conduct awareness-raising activities in this area. Formation of the ecological culture of students and their ecological friendly environment for their environment is one of the major challenges facing the school.

**Key words:** *ecology, ecological culture, environmental policy, plastic waste,plastic wastewater, education, public schools, student development.*





Azərbaycan Respublikasında həyata keçirilən dövlət siyasətinin bir istiqaməti də ekoloji siyasətdir. Ekoloji siyasətin məqsədi insanların ehtiyaclarının təmin edilməsi naminə mövcud ekoloji sistemlərin, iqtisadi potensialın qorunması və təbii ehtiyatlardan səmərəli istifadə yolu ilədavamlı inkişafın təmin edilməsindən ibarətdir. Bunu gerçəkləşdirmək məqsədilə təbii ehtiyatlardan istifadə yolları işlənib hazırlanmalı və iqtisadiyyatın inkişafı davamlılıq prinsipləri əsasında həyata keçirilməlidir.

Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən hazırlanan və ölkə prezidentinin sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında plastik qablaşdırma tullantılarının ətraf mühitə mənfi təsirinin azaldılmasına dair 2019-2020-ci illər üçün Tədbirlər Planı" qarşıya qoyulmuş məqsədə çatmaq üçün bütün maraqlı tərəflərin birgə fəaliyyətini nəzərdə tutur. Bu məqsədlə, ilk növbədə, həyata keçiriləcək əsas tədbirlərdən biri polietilen torbaların alternativi olan kağız, parça və uzunmüddətli istifadə üçün nəzərdə tutulan olunan qablaşdırma vasitələrindən istifadənin genişləndirilməsidir. Bunun üçün polietilen torbaları əvəz edən qablaşdırma vasitələrinin istehsalının genişləndirilməsi və istifadəçilərə təklif edilməsi nəzərdə tutulur" (1).

Məişətdə plastik qablardan, demək olar ki, hər gün istifadə olunur. Yeməklərin qablaşdırılması, saxlanılması, həmçinin birdəfəlik istifadədə də plastik qablara üstünlük veririk. Demək olar ki, bir çox qida məhsulları plastik qablaşdırmalarda satılır. Süd məhsullarından gündəlik tələbatda olan ərzaq məhsullarına qədər, əksər malların satışı plastik qablarda həyata keçirilir. Plastik paketlərdən istifadəyə öyrəşsək də, çoxumuz bunların verdiyi zərər barədə düşünmürük, məsələn, plastik stəkana isti çay və ya digər hər hansi isti bir içki tökdüyümüz zaman istinin təsiri ilə plastik materialın tərkibindəki bəzi kimyəvi maddələr ayrılaraq qidaya qarışır. Hər gün istifadə etdiyimiz və nisbətən daha keyfiyyətli olduğu zənn edilən su bidonları da insan sağlamlığı üçün təhlükəli olan polikarbonat adlı kimyəvi maddədən istehsal edilir ki, bu maddə də 100 dərəcə istilikdə tərkiblərə parçalanaraq qidaya qarışır. Digər plastik qabların hazırlandığı daha bir kimyəvi maddə isə fosgendir ki, bu maddə də parçalanma xüsusiyyətinə malikdir.

"Plastik qabların tərkibində neft, kömür və təbii qaz mövcuddur. Buna görə də yalnız plastik qablar deyil, plastik materialdan olan bütün əşyalar insan sağlamlığı üçün təhlükə mənbəyidir (7).

Təbiəti qorumaq üçün təhsilalanların ekoloji cəhətdən maarifləndirilməsi çox vacib məsələdir. Bildiyimiz kimi, hər bir fərd tərbiyənin mühüm bir hissəsini ümumtəhsil məktəblərində alır. Buna görə də ümumtəhsil məktəbləri öz şagirdlərinin ekoloji cəhətdən hərtərəfli tərbiyəsini təmin etməli və bu sahədə maarifləndirmə işləri həyata keçirməlidirlər. Şagirdlər üçün də bu deyilənlər nəzərə alınmalı, xüsusi nəzarət təşkil olunmalıdır ki, zərərli materiallardan uzaq dursunlar.

Hər kəs ana təbiətin qorunmasında öz borcunu ödəməlidir. Bunun üçün ekoloji tərbiyə çox əhəmiyyətlidir. Azyaşlılara əllərindəki plastik qabları onlar üçün ayrılmış xüsusi konteynerlərə atmalarını başa salmaq ətraf mühitin mühafizəsi istiqamətində atılmış kiçik, amma gələcəkdə böyük nəticəsi olacaq bir addımdır. Bundan başqa, hər birimiz plastik qabların alternativlərindən – şüşə qablardan, polietilen torbaların əvəzləyicisi olan parça və ya kağız torbalardan istifadəyə üstünlük verməliyik. Bu sahədə ümumtəhsil məktəblərində nə qədər çox iş görülsə, bir o qədər faydalıdır. Bunun üçün həm şagirdlərin özlərini təbiəti mühafizə işlərinə cəlb etmək, həm də ekoloji tərbiyəni formalaşdırmaq üçün müxtəlif tədbirlər həyata keçirmək lazımdır.

"Dünyanı təmizlə!" ("Clean up the World!") (4) adlı ictimai birlik 1993-cü ildə yaradılıb və ətraf mühitin qorunması üçün cəmiyyətləri birləşdirən qeyri-kommersiya, qeyri-hökumət təşkilatı-

dır. Bu təşkilat ətraf mühitin təmizlənməsi, mühafizəsi üçün müxtəlif tədbirlərin planlaşdırılması və keçirilməsində yerli qruplara, regional təşkilatlara dəstək verir.

"Dünyanı təmizlə!" təşkilatı hər il 130 ölkədə təxminən 35 milyon könüllünü fəaliyyətə cəlb edir və dünyanın ən böyük ictimai əsaslı ekoloji kampaniyalarından biridir. İcma qrupları, məktəblər, müəssisələr və yerli hakimiyyət orqanları bu təşkilatda üzv kimi birləşir, yerli ekoloji problemlər əsasında fəaliyyət göstərirlər. Bu təşkilat ilə bir çox regionlarla (Afrika, Avropa, Qərbi Asiya, Sakit okean sahilləri, Asiya, Latın Amerikası, Şimali Amerika) əməkdaşlıq edir və ətraf mühitin qorunması problemləri ilə məşğul olurlar.





**şəkil 7. Ətraf mühitin könüllülər tərəfindən təmizlənməsi.**

Müasir dövrdə, ekoloji və sosial-iqtisadi vəziyyəti nəzərə alaraq, respublikamızın ekoloji siyasətinin aşağıdakı üç əsas istiqamətini müəyyənləşdirmək olar:

- ekoloji təhlükəsizliyin təmin olunmasını əsas götürərək, ətraf mühitin çirkləndirilməsinin minimuma endirilməsi və mühafizəsinin tənzimlənməsi məqsədilə davamlı inkişaf prinsipləri üzrə mütərəqqi metodların tətbiq edilməsi;
- indiki və gələcək nəsillərin tələbatını ödəmək məqsədilə təbii sərvətlərdən səmərəli istifadə, alternativ, qeyri-ənənəvi metodlar vasitəsilə tükənməyən enerji mənbələrindən yararlanmaq və onlardan səmərəli istifadəyə nail olunması;
- qlobal ekoloji problemlər üzrə milli səviyyədə tələbatların qiymətləndirilməsi, həlli yollarının müəyyənləşdirilməsi, beynəlxalq təşkilatlarla əlaqələrin genişləndirilməsi, eləcə də milli potensial imkanlardan istifadə etməklə tələbatların ödənilməsinin təmin edilməsi.

Ekoloji mədəniyyətin formalaşdırılması məqsədilə əhali arasında təbliğatın gücləndirilməsi, orta ümumtəhsil məktəblərində ekologiya və ətraf mühitin mühafizəsi ilə bağlı tədris saatlarının artırılması da ekoloji siyasətin tərkib hissəsidir.

Ekoloji tərbiyə kiçik yaşlardan başlanmalıdır. Erkən yaşlardan uşaqlarda təbiət hadisələrinə düzgün baxış formalaşdırmaq, onlara təbiəti, canlıları sevdirmək, uşaq qəlbində xeyirxahlıq hissləri oyatmaq vacib şərtlərdəndir. Bu məsələlərə kiçik yaşlardan diqqət yetirilməzsə, uşaqlarda təbiətə qarşı laqeydlik yarana bilər. Təbiətə qarşı laqeyd münasibət uşaq qəlbində xeyirxahlıq hisslərinin kütləşməsindən başlayır. Bunun qarşısının alınmasında cəmiyyətin hər bir üzvünün üzərinə mühüm vəzifələr düşür.

Məktəblərdə ekoloji tərbiyənin aparılması və şagirdləri ana təbiəti sevməyə, ona qayğı göstərməyə təşviq etmək vacib məsələdir. Bunun üçün mütəşəkkil iş aparılmalıdır. Məktəbin təlim-tərbiyə işləri üzrə direktor müavini, eləcə də sinif rəhbərlərinin başçılığı və nəzarəti ilə uşaqlar növbətçi təyin olunmalı, təhsil aldıqları müəssisənin təmizliyinə riayət etməlidirlər.

""Təmizlik özümüzdən başlayır", "Təmiz dünya – təmiz nəfəs, təmiz qida, təmiz su deməkdir", "Təmizlik sağlamlıqdır", "Dünyamızı təmiz saxlayaq" kimi şüarlarla məktəb həyəti və ətraf mühitin təmizliyi həyata keçirilməlidir.

Uşaq özünü dərk edəndən etibarən ekoloji tərbiyənin əsası qoyulmalıdır. Yerə zibil atmamaq, geyimlərini təmiz saxlamaq, yuyulmamış meyvə və tərəvəzləri qəbul etməmək, kiçik yaşlardan uşa-

ğa özünəxidmət qaydalarını öyrətmək, eləcə də ev işlərində, təmizlikdə böyüklərə yardım etməklə onlarda ekoloji tərbiyənin əsası qoyulur.

Məktəbəqədər təhsil müəssisələrində uşaqların ekoloji tərbiyəsi, təhsil müəssisəsinin təmizliyi, uşaqların şəxsi təmizliyi, sanitar-gigiyenik qaydalara əməl olunması öyrədilməklə ekoloji tərbiyə davam etdirilir.

Ümumtəhsil məktəblərində isə hər bir təhsil səviyyəsinə müvafiq qaydalara riayət etməklə şagirdləri ətraf mühiti mühafizə etməyə alışdırmaq lazımdır. Təmizliyin sağlamlığın əsası olduğunu nəzərə alaraq məktəblərdə ekologiya aylıqları, hər ayda bir və ya iki gün olmaqla ekologiya, yaxud ətraf mühitin qorunması günlərini təşkil etmək olar.

Bu zaman uşaqların fərdi mühafizəsi, onların gigiyenik vasitələrlə tanışlığı, ağızlarına sanitar maskaları taxmaları, əlavə qoruyucu üst geyimləri, əlcək və rezin çəkmələrlə təmin olunmaları vacibdir. Təmizlik işləri apardıqdan sonra uşaqların gigiyenik cəhətdən təmizliklərinə nəzarət edilməsi vacib məsələdir. Uşaqlar xüsusi təmizləyici məhlullar və sabunlarla əllərini təmiz yumalı, dezinfeksiya etməlidirlər.

Təhsilalanları elə tərbiyə etmək lazımdır ki, onlar həm öz ətraflarının, həm də dünyanın təmizliyinə laqeyd qalmasınlar. İctimai birliklərlə könüllü şəkildə məktəblərinin, ətraf mühitin, dəniz sahillərinin və s. təmizlənməsində iştirak etsinlər. Hər şeydən əvvəl –öz ətraflarını çirkləndirməsinlər. Ekoloji mədəniyyəti formalaşdırmaq üçün bu, vacib şərtdir.

Plastik qablaşdırma materiallarından istifadənin qarşısının alınması üçün də məktəblərdə maarifləndirici tədbirlər həyata keçirilməlidir. Şagirdlər arasında layihə formasında müəyyən tədbirlər həyata keçirmək olar, məsələn, “Plastik qablara yox deyək!”, “Təbiət onu sevənləri sevir!” və s. layihələr vasitəsilə şagirdlərin plastik materiallardan, qablaşdırmalardan uzaqlaşdırmaq, onlardan imtina etmələrinə nail olmaq mümkündür.

Təbiətlə və ətraf mühitlə əlaqədar dərslərdə şagirdlərə motivasiya məqsədi ilə şəkillər, videomateriallar nümayiş etdirmək olar.(şəkil 2)





**şəkil 2. Təmiz və çirkli ətraf mühit.**

–Siz hansını seçərdiniz? Nə üçün?– Bu suallarla şagirdlərə müraciət edərək motivasiya yaratmaq, onlarda ətraf aləmi, təbiəti qoruma hisslərini formalaşdırmaq mümkündür.

Bununla yanaşı, texnologiya dərslərində plastik qablaşdırmaların alternativlərini şagirdlərin özlərinə hazırlatdırmaqla onlarda plastik materiallara qarşı mənfi münasibət yaratmaq olar. “Plastik qabları əvəz edək!” layihəsini həyata keçirərkən kağız və parça materialdan torbalar, karton qutular hazırlayaraq məktəb bufetinə vermək olar. Beləliklə, şagirdlər aldıqları qidanı sellofan torbalarda deyil, gigiyenik, bioloji cəhətdən təmiz olan torba və qutularda qəbul edirlər.

Məktəblərdə digər maarifləndirici hərəkat isə uşaqların özlərinin həmin plastik materiallardan imtina etmələridir. Bunun üçün şagirdlər məktəbə gətirdikləri su və qidanı plastik qablarda deyil, alternativ qablaşdırma vasitələrində gətirə bilərlər. Bunu öz ətraflarında da tətbiqinə şagirdləri təşviq etmək, həvəsləndirmək lazımdır.

Şagirdlər dərk etməlidirlər ki, onlar özləri də təbiətin bir parçasıdırlar, buna görə də onu təmiz saxlamağa, qorumağa borcludurlar. Bədən üzvlərimizin birini çirkli saxladıqda necə narahat oluruqsa, təbiəti – yəni hissəsi olduğumuz tamı çirkləndirdikdə də narahat olmalıyıq. Çirklənən təbiətin nəticələri bizim orqanizmimizdən keçir: çirklənmiş suyu içirik, çirklənmiş havanı uduruq, çirklənmiş torpaqda yetişmiş və artıq zərərli maddələrə yoluxmuş qidanı da yenə biz qəbul edirik. Deməli, özümüzü qorumaq üçün, hər şeydən əvvəl, təbiəti, onun sərvətlərini qorumalıyıq.

Bu gün ümumtəhsil məktəblərində ciddi maarifləndirmə tədbirlərinə ehtiyac vardır. Plastik tullantıların təbiətə zərər vurmasının qarşısının alınması, alternativ qablaşdırma vasitələrindən istifadə olunması üçün məktəblərdə müntəzəm maarifləndirici tədbirlər həyata keçirilməli, şagirdlərə bu istiqamətdə məsləhətlər, tövsiyələr verilməli, onlar məlumatlandırılmalıdırlar. Deyilənləri yekunlaşdıraraq aşağıdakı nəticələrə gəlirik:

- Plastik qablaşdırma materiallarının alternativlərindən istifadə edilməsi həm insanın sağlamlığı üçün, həm də ətraf mühitin təmiz qalması, ekosistemin tarazlığının qorunması üçün vacibdir.
- Plastik su, saxlama qabları əvəzinə şüşə, parça, eləcə də kağız və kardon materiallardan istifadə etmək, bunu öz ətraflarında da tətbiq etməyə şagirdləri təşviq etmək, həvəsləndirmək lazımdır.
- Məktəblərdə ekoloji tərbiyənin məqsədəuyğun, mütəşəkkil aparılması nəticəsində şagirdlərdə ana təbiətə sevgi, məhəbbət hissi artır və ekoloji mədəniyyət formalaşır.

Plastik materialların istifadədən çıxarılması və fərqli istiqamətlərdə istifadə edilməsi üçün təkliflərimiz də vardır:

- Plastik materialların yenidən emal edilərək dam örtükləri, parklarda yaşıllıqların kənarı üçün məhəccərlərin düzəldilməsində istifadə olunması məqsədəuyğundur.
- Şagirdlər plastik qablaşdırma və tullantıların ətraf mühitə mənfi təsiri ilə bağlı məlumatlandırılarkən proqram və dərsliklərin imkanlarından səmərəli istifadə olunmalıdır.
- Məktəblərdə plastik materiallardan imtina və alternativ qablaşdırma vasitələrindən istifadə mövzusunda layihələr həyata keçirilməlidir.
- Təlim prosesində, dərsdənkənar vaxtlarda şagirdlərin ekoloji tərbiyəsi ardıcıl və sistemli şəkildə həyata keçirilməlidir.

**Məqalənin elmi yeniliyi**. Məqalədə plastik qablaşdırmaların insan həyatına və təbiətə verdiyi zərərlər haqqında geniş məlumat verilmiş və bu məlumatlar əsaslandırılmışdır.

**Məqalənin praktik əhəmiyyəti**. Bu zərərin aradan qaldırılması üçün yollar göstərilir və həm yerli, həm də ümumdünya miqyasında təşkilatlanma formaları təklif olunur.

**Ədəbiyyat**

1. Azərbaycan Respublikasında plastik qablaşdırma tullantılarının ətraf mühitə mənfi təsirinin azaldılmasına dair 2019–2020-ci illər üçün Tədbirlər Planı. Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 7 fevral tarixli Sərəncamı ilə təsdiq edilmişdir. *https://president.az/articles*
2. Bayramov M.R., Hacıyeva S.R., Qasımova Ş.Z. Ekologiyanın əsasları və təbiətin mühafizəsi. Bakı, 2004,
3. Birləşmiş Millətlərin Ətraf Mühit Proqramı (YUNEP). Ədalət.- 2010.- 6 oktyabr.
4. Ətraf muhitin muhafizəsi uzrə milli fəaliyyət planı. Dövlət Ekologiya və təbiətdən istifadəyə nəzarət komitəsi. Bakı, 1998.
5. Sadıqov A.S., Xəlilov İ.B. Ekologiya və ətraf mühitin mühafizəsi. Bakı, 2009, 268 s.

**Rəyçi: p.ü.e.d. prof. İ.H.Cəbrayılov**
**E-mail:shefa.kazimova@mail.ru**
**E-mail: ruxsare_mirzazade@mail.ru**
**Redaksiyaya daxil olub: 10.07.2019**